16 (1373) 24-30 aprel 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymətı razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "BİRGƏ BƏYANNAMƏ TARİXİ HADİSƏDİR VƏ AZƏRBAYCAN-ÇİN MÜNASİBƏTLƏRİNDƏ YENİ SƏHİFƏ AÇIR"



"Bizim Astanadakı görüşümüz (Çinin Sədri Si Cinpinlə - red.) və onun yekunlarına dair qəbul edilən Birgə Bəyannamə tarixi hadisədir və Azərbaycan-Çin münasibətlərində yeni səhifə açır". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Çinin Sinxua agentliyinə məxsusi müsahibəsində söyləyib.

Dövlətimizin başçısı, həmçinin bildirib: *"ÇXR-in Sədri Si Cinpin ilə ikitərəfli görüş əsnasında çıxışımda qeyd etdim ki, qəbul olunan Bəyannamə ÇXR və Azərbaycanı rəsmi strateji tərəfdaşlara çevirir və bu, böyük nailiyyət, böyük məsuliyyətdir"*. Prezident İlham Əliyev yüksəksəviyyəli səfərlər mübadiləsinin dövlətlərarası münasibətlərimizin dərinləşməsi prosesinə əlavə impuls verəcəyinə inandığını vurğulayıb.

## "KƏMƏR VƏ YOL" TƏŞƏBBÜSÜ ÇƏRÇİVƏSİNDƏ ÇİNLƏ ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRİRİK

"Biz "Kəmər və yol" təşəbbüsü çərçivəsində Çinlə əməkdaşlığı genişləndiririk. Bu istiqamətdə artıq mühüm uğurlar qazanılıb".

Bunu Prezident İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibəsində deyib.

*"Özünün əlverişli coğrafi mövqeyindən istifadə edən Azərbaycan ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, beynəlxalq nəqliyyat dəhlizlərini fəal inkişaf etdirməyə, müasir infrastruktur yaratmağa və onların ötürücülük qabiliyyətinin artırılmasına əlavə investisiya qoymağa davam edir"*, - deyə Azərbaycan Prezidenti bildirib.

## "SEA BREEZE" GƏLƏCƏYİN ŞƏHƏRİ KİMİ İNAMLA İNKİŞAF EDİR



Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Bakıda "Sea Breeze" istirahət mərkəzinin ərazisində həyata keçirilən və qarşıdakı dövrdə planlaşdırılan layihələrlə tanış olublar.

"Agalarov Development" şirkətinin təsisçisi Emin Ağalarov əvvəlcə dövlətimizin başçısına və birinci xanıma "Sea Breeze"də istismara verilmiş "Park Residences 2" layihəsi barədə məlumat verib.

Bildirilib ki, bu layihə çərçivəsində 1260 mənzildən ibarət yeddimərtəbəli 10 bina tikilib.



Sakinlərin rahatlığını təmin etmək üçün burada müasir infrastruktur - hovuzlar, istirahət zonaları nəzərdə tutulub, həmçinin ərazidə geniş yaşıllaşdırılma işləri həyata keçirilib. Ölkəmizdə keçirilən COP29 çərçivəsində "Sea Breeze" ümumilikdə 4 minə yaxın qonaq qəbul edib ki, onlardan da çoxu məhz "Park Residences 2" layihəsinin binalarında yerləşib.

Sonra Prezident İlham Əliyevə "Sea Breeze"in ümumi baş planı və həyata keçirilmiş layihələr barədə məlumat verilib. Qeyd olunub ki, kompleksin ərazisində indiyədək 500-dən artıq daşınmaz əmlak obyekti tikilib.

Əsas layihələri sahil zolağında yerləşən "Sea Breeze" gələcəkdə ölkəmizin turizm imkanlarını artıracaq və Azərbaycanı turizm baxımından daha cəlbedici edəcək.

## "ÇİN AZƏRBAYCANIN 4-CÜ ƏN BÖYÜK TİCARƏT TƏRƏFDAŞINA ÇEVRİLİB"

"Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşına çevrilib, onun xarici ticarət dövriyyəmizdə payı 7,9 faiz olub, həmçinin idxal üzrə də lider mövqeyinə çıxıb və bu göstərici 17,69 faizə çatıb".

Bunu Prezident İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibəsində deyib. İki ölkə arasında hələ də reallaşdırılmayan böyük potensialın mövcud olduğunu vurğulayan dövlətimizin başçısı vurğulayıb: *"Hesab edirəm ki, iki ölkə arasında iqtisadi-ticari əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya ikitərəfli iqtisadi əlaqələri genişləndirmək, əməkdaşlığın perspektivli istiqamətlərini aşkara çıxarmaq və onları hüquqi müstəvidə bundan sonra möhkəmləndirmək üçün mühüm mexanizmdir. Komissiyanın qərarlarının vaxtında yerinə yetirilməsi səylərimizin uğur qazanmasının rəhni olacaq"*.

## "AZƏRBAYCAN-ÇİN STRATEJİ TƏRƏFDAŞLIĞI YENİ MÜSBƏT MƏZMUNLA ZƏNGİNLƏŞİR"



"Şadam ki, qədim tarixə və xeyirxah ənənələrə əsaslanan Azərbaycan-Çin münasibətləri yüksələn xətlə inkişaf edir, bizim strateji tərəfdaşlığımız isə yeni müsbət məzmunla zənginləşir".

Bu fikri Prezident İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibəsində səsləndirib.

Dövlətimizin başçısı qeyd edib ki, fəal dialoq, şəxsi görüşlər, telefon danışıqları, məktubların mübadiləsi əsasında yaranan qarşılıqlı hörmət və etimad ikitərəfli münasibətlərin dərinləşməsində misilsiz rol oynayır.

* * *

Aprelin 23-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin iştirakı ilə Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimi olub.

Prezident İlham Əliyev və Sədr Si Cinpin "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ı imzalayıblar.

## Azərbaycanla Çin arasında energetika sahəsində bir sıra sənədlər imzalanıb

Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində ölkəmizin Energetika Nazirliyi ilə Çin şirkətləri arasında bir sıra sənədlər imzalanıb.

İmzalanmış sənədlər arasında "Azərbaycan Respublikasının Hökuməti və "Universal Solar Azerbaijan" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Azərbaycan Respublikasında 100 MVt gücündə Qobustan günəş elektrik stansiyası Layihəsi ilə bağlı İnvestisiya Müqaviləsi", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "China Energy Overseas Investment Co. Ltd." şirkəti arasında Azərbaycan Respublikasında dənizdə külək enerjisi layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi", "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "China Datang Overseas Investment Co. Ltd" və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Böyükşor gölündə 30 MVt gücündə batareya enerji saxlanc sistemi ilə 100 MVt gücündə üzən günəş elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi, "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "PowerChina Resources Limited" və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 160 MVt gücündə günəş elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi (mübadilə ediləcək)", Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında "Bərpa olunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması"na dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti, "China Datang Overseas Investment Co. Ltd" və "PowerChina Resources Limited" arasında Xəzər dənizinin Azərbaycan sektorunda 2 QVt gücündə dənizdə külək enerjisi layihəsinin inkişafına dair Anlaşma Memorandumu" yer alıb.



# İranın Azərbaycana qeyri-neft məhsul ixracı artıb

Ötən İran ilində (20 mart 2024 - 20 mart 2025) İranın Azərbaycana qeyri-neft məhsul ixracı öncəki illə (21 mart 2023 - 19 mart 2024) müqayisədə dəyər baxımından 9%, çəki baxımından 10,6% artıb.

Bu barədə Trend İranın Gömrük Administrasiyasının statistikasına istinadən məlumat verib.

Statistikaya əsasən, əvvəlki İran ilində İranın Azərbaycana qeyri-neft məhsul ixracı öncəki illə (21 mart 2022 - 20 mart 2023) müqayisədə dəyər baxımından 4,6% azalıb, çəki baxımından 1,4% artıb.

Statistikada əlavə olunur ki, ötən İran ilində İranın Azərbaycana qeyri-neft məhsul ixracı 681 milyon dollar dəyərində, təxminən 859 min ton təşkil edib.

Statistikada qeyd olunur ki, öncəki İran ilində İranın Azərbaycana qeyri-neft məhsul ixracı 624 milyon dollar dəyərində, 776 min ton təşkil edib.

Statistikada deyilir ki, İran Azərbaycana, əsasən, kənd təsərrüfatı və ərzaq məhsulları, sənaye məhsulları, neft-kimya və kimyəvi məhsullar ixrac edib.

Statistikada qeyd olunur ki, ötən İran ilində İran və Azərbaycan arasında qeyri-neft ticarət dövriyyəsi 712 milyon dollar dəyərində, təxminən 872 min ton təşkil edib. İki ölkə arasında ticarət dövriyyəsi öncəki illə müqayisədə dəyər baxımından 6%, çəki baxımından 9,4% artıb.

# Gələn il biznes kreditlərinin məbləği 16 milyard manatı ötəcək

Bank sektoru üzrə biznes kreditlərinin məbləğinin 2026-cı ildə 16,5 milyard manata çatacağı proqnozlaşdırılır.

Bu barədə Trend Azərbaycan Mərkəzi Bankının (AMB) açıqladığı "Maliyyə sektorunun inkişaf Strategiyası"nın 2024-cü il üzrə icra statusuna istinadən xəbər verir.

Eyni zamanda, gələn il bank xidmətləri ilə təmin edilmiş əhalinin yetkin əhaliyə nisbətinin 85% təşkil edəcəyi ehtimal edilir.

Bundan başqa, 2026-cı ildə yetkin əhali arasında əmanətçilərin çəkisinin 2,7%, xərc/gəlir əmsalının isə 40%-ə bərabər olacağı ehtimal olunur.

Qeyd edək ki, Strategiyaya uyğun olaraq bank sektorunda əlverişli və məsuliyyətli bank xidmətlərinin genişləndirilməsi vasitəsilə dayanıqlı inkişafın dəstəklənməsi nəzərdə tutulur. Bu məqsədlə bank sektoru üzrə bazarın genişləndirilməsi, bank olmayan kredit təşkilatlarını inkişaf etdirməklə onların iqtisadiyyatın maliyyələşməsində rolunun yüksəldilməsi, eləcə də nəzarət çərçivəsinin müasirləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi planlaşdırılır.



# Bank sektorunun inkişaf strategiyası üzrə icra vəziyyəti və hədəflər açıqlanıb

Ötən il Azərbaycanda bank sektorunun inkişaf strategiyası üzrə icra vəziyyəti məlum olub.

Bu barədə Trend Azərbaycan Mərkəzi Bankının (AMB) açıqladığı "Maliyyə sektorunun inkişaf Strategiyası"nın 2024-cü il üzrə icra statusuna istinadən xəbər verir.

Belə ki, bank sektorunda strategiyanın plan üzrə icra olunan fəaliyyət istiqamətləri 79,2 faiz, gecikən fəaliyyət istiqamətləri isə 20,8 faiz olub.

Bu sektorda əsas nailiyyətlər kimi "Banklarda korporativ idarəetmə Standartları"na dəyişikliyin edilməsi, "Risk əsaslı nəzarət üzrə Siyasət Konsepsiyası"nın təsdiq edilməsi, "Nəzarət texnologiyaları (Suptech) üzrə Yol Xəritəsi"nin təsdiqi, eləcə də "Banklara aidiyyəti olan şəxslərlə əməliyyatların aparılması Qaydası"nın təsdiqi və dayanıqlı mikromaliyyə modeli üzrə təklifər paketinin hazırlanması göstərilib.





Bank sektorunda görüləcək addımlar kimi isə aalternativ maliyyələşdirmə alətləri üçün tənzimləyici mexanizllərin yaradılması və metodoloji dəstəyin təmin edilməsi, banklar arasında ortaq xidmətlər (shared services) və resurslardan effektiv istifadə imkanlarının araşdırılması, qabaqcıl təcrübələrə müvafiq olaraq kredit ittifaqı biznes modellərinin təkmilləşdirilməsinin dəstəklənməsi, ICAAP/ILAAP (Internal Capital Adequacy Assessment Process/ Internal Liquidity Adequacy Assessment Process) implementasiyası üzrə tələblərin hazırlanması və banklara dəstək göstərilməsi, risk əsaslı tənzimləmə və nəzarət modelinə müvafiq olaraq nəzarət proseslərinin modernizasiyası, eləcə də konsolidasiya edilmiş tənzimləmə və nəzarət üzrə yanaşmanın hazırlanması müəyyənləşdirilib.

Sektorun gecikən fəaliyyət istiqamətlərinə layihə və sindikatlaşdırılmış maliyyələşdirmənin tətbiq imkanlarının araşdırılması, təchizat zəncirinin maliyyələşdirilməsi alətlərinin tətbiqi ilə bağlı təşviqedici hüquqi çərçivənin formalaşdırılması, BOKT-lərin institusional potensialının gücləndirilməsi, eləcə də aktivlərin təsnifləşdirilməsi və ehtiyatların yaradılmasına Beynəlxalq Maliyyə Hesabatı Standartları yanaşmasının tətbiqinin nəzərdən keçirilməsi daxildir.

# Gələn il cəmi sığorta aktivləri 4 milyard manata yaxınlaşacaq



Sığorta sektoru üzrə hesablanmış sığorta haqqının (HSH) 2026-cı ildə adambaşına minimum məbləğinin 195 manat olması planlaşdırılır.

Bu barədə Trend Azərbaycan Mərkəzi Bankının (AMB) açıqladığı "Maliyyə sektorunun inkişaf Strategiyası"nın 2024-cü il üzrə icra statusuna istinadən xəbər verir.

Eyni zamanda gələn il üzrə sığorta etimadı indeksinin 80%, hesablanmış sığorta haqqının qeyri-neft ÜDM-ə nisbətinin 2,15% olacağı ehtimal edilir.

Həmçinin 2026-cı il üçün həyat sığortası üzrə (yığım sığortası istisna olmaqla) hesablanmış yığım haqqının 280 milyon manat, könüllü sığorta üzrə (həyat sığortası istisna olmaqla) hesablanmış yığım haqqının 630 milyon manat olacağı proqnozlaşdırılır.

Bundan başqa, hesablamalara görə, cəmi sığorta aktivləri isə 2026-cı il üzrə 3,70 milyard manata bərabər olacaq.

# Qarabağ iqtisadi rayonunda islam maliyyəsinin istifadə imkanlarının genişləndirilməsi məsələləri



EBRU KALAN
UNEC doktorant

***Ölkə Prezidenti tərəfindən müəyyən edilən iqtisadi inkişaf modeli çərçivəsində işğaldan azad olunmuş Qarabağ ərazilərində iqtisadiyyatın həmin modelin əsas prinsiplərinə əsaslanaraq alternativ maliyyə kanallarının tətbiqi əsas müzakirə mövzuları ola bilər.***

Bu gün dünyanın 92-dən artıq ölkəsində üç yüzdən çox islam maliyyə institutu fəaliyyət göstərir və onların aktivləri 3.2 trl. dollar, illik artım templəri isə 10-15% təşkil edir.

Qarabağdakı şirkətlər tərəfindən qoyulacaq investisiyalar üçün islami maliyyələşdirmə alətlərinin seçilməsi ənənəvi maliyyənin yüksək xərclərindən və təzyiqlərindən xilas edəcək və investiyanın inkişafı üçün alternativ maliyyə mənbəyi təmin edəcəkdir.

Bu çərçivədə, Malayziya və Körfəz bölgəsindəki təcrübələri araşdırmaq və Qarabağ üçün uyğun infrastruktur və investisiya modellərini inkişaf etdirmək lazımdır. 40 illik islam bankçılıq təcrübəsinə sahib Türkiyə ilə bu sahədə işbirliyi isə iki ölkə arasındakı qardaşlığı gücləndirəcəkdir. UNEC-də fəaliyyət göstərən İslam maliyyə mərkəzi bu işə töhfə verməyə hazırdır.

İslam iqtisadiyyatına artan marağı qarşılamaq üçün son vaxtlar nüfuzlu konsaltinq şirkətləri və reytinq agentlikləri, tanınmış iqtisadçılar və yüksək səviyyəli siyasətçilər mediada bu mövzuda analitik yazılarla çıxışlar edirlər. Thomson Reuters və Dubay İslam İqtisadiyyatının İnkişaf Mərkəzi ilə birgə "Salaam Gateway" adlı bir qlobal informasiya mərkəzi fəaliyyət göstərir. Bu nəşrdə halal sənayesi, islami maliyyələşdirmə və islami həyat tərzinə malik şirkətlərin fəaliyyəti haqqında geniş məlumat bazaları yerləşdirilmişdir.

Transmilli şirkətlər - General Electric və Goldman Sachs korporativ sukuk - İslam istiqrazları buraxırlar. Qarabağda fəaliyyət göstərən şirkətlər əlavə maliyyə mənbəyi kimi sukuk istiqrazlarının tətbiqindən yararlana bilərlər.

Bu gün islam iqtisadiyyatı Azərbaycan üçün hər zamankından daha aktualdır. Qarabağ regionunda kapitaltutumlu iri meqa layihələrinin təminatı üçün alternativ maliyyə qaynaqlarına ehtiyac vardır. İslam iqtisadiyyatının potensialından nə qədər tez istifadə etsək, sahibkarlarımız bundan bir o qədər tez faydalana bilərlər. Qarabağda açılan bu fürsətlərdən istifadə etmək zamanı gəlmişdir. Qarabağda bölgə sahibkarlarının islam bazarına girmə imkanlarını genişləndirməklə, kiçik və orta sahibkarlığın inkişafına güclü təkan verməк olar. Qarabağda islam iqtisadiyyatının əsas hərəkətverici qüvvələrinin qida və moda sənayesi olduğuna inanırıq. Fikrimizcə, islami maliyyələşdirmə sektoru ilk olaraq iki sektorun (qida və moda) inkişafına uyğunlaşır ki, bu da maliyyə məhsullarına tələbi stimullaşdıra bilər.

Qarabağ iqtisadiyyatının alternativ beynəlxalq maliyyə investisiyalarına həm ehtiyacı var, həm də Qarabağ iqtisadiyyatı bir bazar kimi onlara çox cazibədar ola bilər. Ona görə də islam maliyyəsinin imkanlarının işğaldan azad olunmuş Qarabağ ərazilərinin bərpasında istifadəsi zəruridir. Biz hesab edirik, bu, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələri arasında iqtisadi və maliyyə əlaqələrinin inkişafı üçün dayanıqlı platforma ola bilər. Azərbaycanda islam maliyyə modelinin tətbiqi ilə zəngin ərəb ölkələrindən, ilk növbədə Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, eləcə də digər müsəlman dövlətlərindən, o cümlədən Türkiyədən, İrandan investorların cəlb edilməsi mümkün olacaq.

Əməkdaşlıq üçün beynəlxalq islam təşkilatları (İİB və onun filialları, müxtəlif islam fondları və özəl tərəfdaşlıqları) və inkişaf etmiş islam iqtisadi ekosisteminə sahib olan ayrı-ayrı dövlətlər (Səudiyyə Ərəbistanı, Malayziya, BƏƏ və s.) var. Bu strukturlar hüquqi mühitin və fiziki infrastrukturun islamın və halal sənayenin tələblərinə uyğunlaşdırılmasına kömək edə bilər. Bu sahədə halal məhsul istehsalçılarını və ixracatçılarını dəstəkləyən və halal sertifikatlaşdırma üçün daxili prosedurları inkişaf etdirə bilən, habelə islam iqtisadiyyatı və faydaları barədə ictimaiyyəti məlumatlandırmaq üçün daha çox tədbir keçirə bilən əlavə mütəxəssislərin təhsil almasına ehtiyac var. Bu, prinsipial olaraq vacib bir amildir, çünki islami maliyyələşdirmənin xüsusiyyətləri birbaşa qanunvericilik və icra orqanlarından asılı olan xüsusi bir hüquqi baza tələb edir və maliyyə institutlarının fəaliyyəti ilə bağlı bəzi qanunlarda dəyişikliklərin edilməsini zəruri edir.

Azərbaycanda alternativ maliyyə mənbələrindən istifadə üçün hüquqi bazaya ehtiyac var: "mudaraba" və "müşarak" mexanizminə, "sukuk" islam istiqrazları, icara mexanizmlərinin tətbiqi günün tələbidir. Qarabağın bərpasında iştirak etmək istəyən islam maliyyə təşkilatları bu mexanizmlərdən istifadə edə bilmir.

Bundan başqa, Alternativ maliyyə modelinin İnkişafına dair Yol Xəritəsi hazırlana bilər. Bu proqramda qanunvericilik, iqtisadi təhsil, alternativ maliyyə xidmətlərindən istifadənin genişləndirilməsi məsələləri əks oluna bilər.

***Qarabağda islam maliyyəsinin istifadə imkanları geniş və müxtəlif sahələri əhatə edə bilər. İslam maliyyəsi faizsiz maliyyə prinsiplərinə əsaslanan və iqtisadiyyatın müxtəlif sahələrinə uyğunlaşdırıla bilən bir sistemdir. Qarabağda bu sistemin tətbiqi potensial olaraq bir neçə sahədə faydalı ola bilər:***

**1. İnfrastruktur və iqtisadi inkişaf:** Qarabağda bərpa və inkişaf üçün böyük infrastruktur layihələri tələb olunur. İslam maliyyəsi xeyriyyə və qrant fonları, həmçinin "mudaraba" (biznesin idarə edilməsinə birgə sərmayə qoyulması) və "musharaka" (sərmayə paylaşılması) kimi maliyyə vasitələri ilə bu inkişaf layihələrinə sərmayə qoyulmasını dəstəkləyə bilər.

**2. Kiçik və orta bizneslər (KOB-lar):** İslam maliyyə prinsipləri kiçik və orta sahibkarlara faizsiz kreditlər və sərmayə qoyuluşları təmin edərək, Qarabağda iqtisadi inkişafı sürətləndirə bilər. Bu, kənd təsərrüfatı, sənaye və xidmət sahələrində yeni iş yerlərinin yaranmasına, eyni zamanda regionda iqtisadi müstəqilliyin güclənməsinə səbəb olar.

**3. Sosial sahələr:** islam maliyyəsi sosial layihələrə və təhsil, səhiyyə, infrastruktur kimi sahələrə sərmayə qoyulması üçün də faydalı ola bilər. "Zakat" və "sadaqa" (xeyriyyə köməkliyi) prinsipləri ilə insanların və müəssisələrin yerli icmalara dəstək verməsi mümkün ola bilər.

**4. Ticarət və xarici ticarət əməkdaşlığı:** Qarabağda islam maliyyəsi xarici investorlara regiona sərmayə qoymağı təklif edə bilər. Məsələn, islam dövlətlərindən və regiondakı digər ölkələrdən gələn ticarət və investisiya imkanları ilə Qarabağ iqtisadiyyatını canlandırmaq mümkündür.

Bu prinsiplər və maliyyə alətləri Qarabağda mövcud iqtisadi şəraitə uyğun şəkildə inkişaf etdirilərək, regionun iqtisadi və sosial infrastrukturunun yenidən qurulmasına, həmçinin regional sabitliyə töhfə verə bilər.

Bütün bu sahələrdə islam maliyyəsinin istifadə olunması Qarabağ iqtisadi rayonunun bərpası və inkişafı üçün dayanıqlı, sosial ədalətli və faydalı maliyyə mühiti yarada bilər.

İslam maliyyə alətlərinin, xüsusən "sukuk" (faizsiz istiqrazlar) istifadəsi, Qarabağ iqtisadi rayonunun inkişafında çox faydalı ola bilər. Bu alətlər, həm yerli, həm də beynəlxalq sərmayədarları regiondakı infrastruktur və iqtisadi inkişaf layihələrinə cəlb etmək üçün müxtəlif imkanlar təqdim edir. "Sukuk" və digər islam maliyyə alətlərinin istifadəsi ilə əlaqədar bir neçə vacib addım aşağıdakılardır:

**1. Sukuk istiqrazlarının izdihamı və bazarda tanınması:**

İlk növbədə, Qarabağda iqtisadi inkişaf layihələrinin maliyyələşdirilməsi məqsədilə sukuk istiqrazlarının buraxılması və bazarda tanıdılması önəmlidir. Sukuk layihənin mülkiyyətinin və gəlirinin paylanmasını təmin edən faizsiz maliyyə alətidir. Bu istiqrazların buraxılmasını təşkil etmək üçün aşağıdakı addımlar atılmalıdır:

- **İqtisadi layihələrin seçilməsi:** layihələrə uyğun olan iqtisadi layihələr, məsələn, infrastruktur layihələri, enerji sahəsindəki bərpa işləri və kənd təsərrüfatının inkişaf layihələri müəyyənləşdirilməlidir. Bu layihələr sukuk istiqrazlarının əsasını təşkil edəcək və sərmayədarlara gəlir təmin edəcək.
- **Sukuk strukturlarının hazırlanması:** layihənin növünə uyğun olaraq, sukuk istiqrazlarının strukturu hazırlanmalıdır. Məsələn, "ijarah" (mülkiyyətin kirayəsi) və ya "mudaraba" (işgüzar tərəfdaşlıq) strukturlarına əsaslanaraq sukuk istiqrazları təşkil edilə bilər. Bu strukturlar sərmayədarlara faizsiz gəlir təmin etməklə yanaşı, həm də layihə ilə bağlı mülkiyyət hüququ verə bilər.

**2. Beynəlxalq və yerli sərmayədarları cəlb etmək:**

sukuk istiqrazlarının buraxılması həm yerli, həm də beynəlxalq sərmayədarları Qarabağ iqtisadiyyatına cəlb etmək üçün istifadə edilə bilər:

- **İslam dünyası ilə əlaqələr:** islam ölkələrindən gələn sərmayədarların Qarabağa investisiya qoymalarını təşviq etmək üçün "sukuk" istiqrazları, bu ölkələrin bazarlarında tanınan bir maliyyə alətidir. Məsələn, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və digər körfəz ölkələri islam maliyyə alətlərinə maraq göstərən bazarlardır.
- **Beynəlxalq islam maliyyə bazarları:** qlobal islam maliyyə bazarlarında tanınan nəhəng maliyyə qurumları və investisiya fondları, sukuk istiqrazları vasitəsilə Qarabağa sərmayə qoymağa maraq göstərə bilərlər. Bu istiqrazların beynəlxalq səviyyədə tanınması üçün beynəlxalq maliyyə qurumları ilə əlaqələr qurulmalıdır (diaqram 1).

*(davamı gələn sayımızda)*





**Qrafik: Dünyada sukuk həcminin artımı: Malayziya, Səudiyyə Ərəbistanı, Bəhreyn və digər ölkələr**

17.04.2025

# Выступление Посла на встрече с представителями СМИ



***Уважаемые журналисты, дамы и господа, дорогие друзья!***

***Мы сегодня продолжаем традицию встреч в Посольстве Беларуси с представителями средств массовой информации Азербайджана.***

Сердечно приветствую на нашем приеме главных редакторов и редакторов газет, журналов, информационных агентств, корреспондентов и сотрудников газет, информагентств, телеканалов, инфопорталов.

Мы также пригласили на прием в качестве почетных гостей представителей народной дипломатии. Рад поприветствовать руководителя группы дружбы в Милли Меджлисе академика, депутата Зияда Самедзаде, председателя Наблюдательного совета Гянджинского автомобильного завода Ханлара Фатиева, председателя общества дружбы "Азербайджан – Беларусь" Васифа Исмаилова, члена общества дружбы, дилера Минского электротехнического завода Гяфиза Сеидова, руководителя двух центров белорусского языка и культуры Альбина Сеидова и Сергей Климов. *Это настоящие друзья Беларуси.*

**О политическом диалоге**

Мне как новому Послу Беларуси, отрадно констатировать, что белорусско-азербайджанские отношения вышли на уровень стратегического и братского партнерства, которое основано на взаимном уважении и многолетней дружбы двух народов.

Наши мудрые президенты – Александр Григорьевич Лукашенко и Ильхам Гейдарович Алиев показывают нам пример конструктивного взаимодействия и взаимовыгодного сотрудничества в различных областях. Задают нам высокий уровень развития отношений.

За 32 года дипломатических отношений они совершили 12 визитов и многократно встречались на международных форумах. Двусторонняя договорно-правовая база уже насчитывает более 120 договоров, охватывающих все сферы наших отношений.

Договоры и планы выполняются, контакты активно расширяются. В июне прошлого года стороны актуализировали Дорожную карту сотрудничества на 2025-2026 годы.

**Говоря об итогах нашего сотрудничества в 2024 году и 1 кв. 2025 г., отмечу его активизацию и комплексный характер.**

В прошлом году состоялся государственный визит Президента Беларуси, в ходе которого он посетил жемчужину Карабаха – город Шушу, подарил два трактора для нужд городского коммунального хозяйства. Хочу подчеркнуть, что он стал первым и остается пока единственным из лидеров нетюркских государств, посетившим освобожденные территории.

Александр Григорьевич принял участие в климатическом саммите COP29 в Баку и выступил на нем с позицией нашей страны. По просьбе азербайджанской стороны в феврале 2025 года белорусская сторона обеспечила поддержку Бакинских руководящих принципов по человеческому развитию для обеспечения устойчивости климата.

Хочу подчеркнуть, что Беларусь всегда готова подставить плечо нашим азербайджанским друзьям и партнерам. Наша поддержка носит взаимный характер. Мы смотрим на многие вещи одинаково. В вопросах социальной политики, проблемах безопасности.

Например, вот уже только на форумах в 2025 году Азербайджан поддержал кандидатуру Беларуси по статусу наблюдателя в Азиатской парламентской ассамблее в Баку, а Беларусь поддержала продление председательства Азербайджана в Парламентской сети Движения неприсоединения в Ташкенте.

**О торгово-экономическом сотрудничестве**

Ключевым вектором развития белорусско-азербайджанских отношений несомненно является торгово-экономическое сотрудничество.

Беларусь и Азербайджан нацелены на расширение и диверсификацию двусторонней торговли на равноправных и взаимовыгодных условиях. Сегодня достигнутой динамике нашего взаимодействия могут позавидовать многие партнеры. И это всецело подтверждается показателями сотрудничества в торгово-экономической сфере: за 2024 год мы нарастили товарооборот в полтора раза.

Основными приоритетами экономического партнерства являются: сотрудничество в промышленной кооперации, сельском хозяйстве, деревообработке, совместные проекты в фар-





мацевтической и иных сферах, а также инвестиционное сотрудничество.

На протяжении последних лет обеспечивался активный обмен визитами по экономической повестке на уровне правительств, руководителей министерств и ведомств, крупных компаний, представителей деловых кругов Беларуси и Азербайджана. Активизировалось участие в выставочно-ярмарочных мероприятиях двух стран. Успешно функционирует механизм Межправительственной комиссии, совместные заседания которой проводятся на ежегодной основе. 14-е заседание МПК состоялось 6 июня 2024 г. в Минске.

Хочу подчеркнуть, что мы не просто развиваем торговлю между нашими странами, а реализуем все новые и новые совместные проекты.

С уверенностью могу сказать, что Азербайджан для Беларуси всегда был и остается одним из самых важных и надежных торгово-экономических партнеров.

**О межрегиональном сотрудничестве**

Одним из важнейших элементов, придающих импульс развитию стратегического партнерства на принципах взаимного уважения, доверия и искренней дружбы между нашими странами являются устойчивые прямые связи между нашими городами и регионами.

Межрегиональное сотрудничество Беларуси и Азербайджана развивается весьма динамично.

На сегодняшний день побратимские и партнерские связи установлены между 9 городами и регионами Беларуси и Азербайджана.

В их числе, например, Минск и Баку, Гомель и Гянджа, Могилев и Сумгаит.

Городами-побратимами и партнерами двух стран осуществляются регулярные взаимные визиты; обеспечивается активное участие в проводимых ими мероприятиях экономического и гуманитарного характера.

Наши страны не только развивают имеющиеся отношения между регионами, но и ведут постоянную работу над их расширением и установлением новых связей между городами и регионами Беларуси и Азербайджана.

Такой подход несомненно способствует укреплению дружеских отношений между нашими государствами.

**Гуманитарное сотрудничество**

В последнее время подписан ряд новых соглашений о сотрудничестве учреждений культуры – филармоний, музеев, театров, музыкальных академий, союзов художников Беларуси и Азербайджана.

В апреле 2024 г. проведены Дни культуры Беларуси в Азербайджане. В программе этого форума были Дни белорусского кино, выставка «Беларусь глазами художников», гала-концерт, круглый стол деятелей искусств. Министрами достигнута договоренность сформировать совместную рабочую группу.

В 2024 г. Министр культуры Беларуси и белорусские парламентарии приняли участие в 6-м Всемирном форуме по межкультурному диалогу в Баку.

Министр культуры Азербайджана в июле 2024 г. посетил Беларусь и принял участие в XXXIII Международном фестивале «Славянский базар в Витебске».

В прошлом году мастера, исполнители и творческие коллективы из Азербайджана приняли участие в XIV фестивале национальных культур (в Гродно), республиканском празднике «Купалье» («Александрия собирает друзей»), а также международных фестивалях «Венок дружбы», «Золотая пчелка», «Анимаевка», «Белая вежа», а в марте 2025 года – в театральном молодежном форуме «M.art. контакт» (в Могилеве). Недавно, месяц назад, в Азербайджанском национальном музее искусств открыта (и, кстати, до 4 мая работает) выставка работ выдающихся мастеров Ю.Пэна и Я.Кругера из коллекции Национального художественного музея Беларуси.

В мае 2024 г. в Баку был открыт второй Центр белорусского языка и культуры на базе Азербайджанского университета языков. Напомню вам, что первый Центр белорусского языка и культуры был открыт в 2010 году при Бакинском славянском университете в рамках визита Президента Беларуси.

В декабре 2024 г. в этом университете была проведена фотовыставка «Суверенная Беларусь», с которой благодаря Вашим усилиям смогла познакомиться широкая азербайджанская аудитория.

В целом же, сотрудничество по линии образования не ограничивается деятельностью названных Центров. Мы отмечаем взаимный интерес со стороны студентов, а наши вузы, чувствуя эту ситуацию, сейчас предварительно прорабатывают современные варианты двустороннего обучения вплоть до таких, когда наши студенты смогут обучаться в обеих странах и получать потом дипломы сразу от двух стран.

Взаимодействие Беларуси и Азербайджана в сфере образования и науки осуществляется в рамках порядка 90 межуниверситетских договоров, из которых 6 подписано в 2024 году.

В сфере профессионального образования с прошлого года мы начали, как мне кажется, стратегическое направление сотрудничества, плоды которого наши страны смогут ощутить в будущем через сеть центров профессионального образования по наиболее востребованным для Азербайджана профессиям.

***А какие же события и мероприятия нас ждут в 2025 году, о чем вам предстоит писать?***

**В экономической сфере:**

На июнь 2025 г. намечено проведение 15-го заседания МПК по ТЭС в Баку. Это важный государственный инструмент развития двусторонней торговли товарами и услугами.

**В гуманитарной области:**

С 28 сентября по 8 октября 2025 г. пройдут III Игры стран СНГ: в Гяндже и еще 6 других городах по 23 видам спорта. Хочу сказать, что Беларусь – спортивная страна. И заверяю вас в том, что спортсмены Беларуси будут широко представлены на III Играх в Азербайджане. Напомню, что в августе 2023 года мы принимали представительную азербайджанскую команду на II Играх СНГ в Минске.

В качестве анонса в нашем культурном сотрудничестве скажу, что двумя министерствами культуры прорабатывается вопрос об организации гастролей нашего всемирно известного ансамбля «Песняры» в Баку.

Планируется также проведение ответных Дней культуры Азербайджана в Беларуси. Хотел бы, пользуясь случаем, выразить нашу заинтересованность в проведении такого форума в Минске.

И конечно же, как всегда, ждем азербайджанских участников на Международном фестивале «Славянский базар в Витебске» и Международном кинофестивале «Лістапад» в Минске. Это наши традиционные и широко известные культурные форумы.

**Что касается вопросов образования, хотел бы анонсировать проведение в 2025 году в Беларуси масштабного международного мероприятия в этой сфере – VI Республиканского конкурса профессионального мастерства ProfSkills Belarus.**

Очень важно, чтобы наши гуманитарные связи носили активный и повседневный характер. Не от мероприятия к мероприятию, а системно и активно.

Как глава белорусской дипмиссии, подчеркну, что сотрудничество в сферах культуры, образования, спорта, туризма, экологии способствует расширению межчеловеческих контактов и укреплению дружественных отношений между нашими братскими народами.

**Таким образом, в нашей двусторонней повестке дня – новые визиты и контакты на разных уровнях.**

Беларусь высоко ценит проверенную временем дружбу с Азербайджаном и наше всестороннее сотрудничество, которое носит взаимовыгодный, равноправный, устойчивый характер и не подвержено текущей конъюнктуре. Обе стороны уверены, что всегда могут рассчитывать на поддержку друг друга в различных областях и ситуациях.

**Мы с вами видим, как углубляются и расширяются политические и межпарламентские контакты, гуманитарные связи.**

Особо хочу обратить ваше внимание на тот факт, что в 2025 году Беларусь председательствует в ЕАЭС. Приоритеты нашего председательства направлены на дальнейшее сближение стран-участниц и обозначены в Обращении Президента Республики Беларусь А.Г.Лукашенко главам государств-членов ЕАЭС в начале 2025 г.

**В этом году Беларусь вместе с Азербайджаном и всеми странами СНГ будет отмечать 80-летие нашей общей Победы над фашизмом.**

Считаю глубоко символичным, что президенты Беларуси и Азербайджана встретятся в священный День Победы 9 Мая в Москве.

Белорусский народ подвергся геноциду и понес огромные жертвы, но не покорился и мужественно боролся за свободу. Об этом расскажут новые белорусские документальные фильмы, которые наше посольство планирует показать 14 мая на площадке Азербайджанского национального музея искусств в Баку.

Наши народы внесли весомый вклад в общую Победу советского народа. Помним значение бакинской нефти для фронта, подвиги белорусских партизан и подпольщиков. Мы не забываем славные имена участников освобождения Беларуси – Героев Советского Союза Ази Асланова (дважды Герой, памятник ему воздвигнут в г.Вилейка, на моей малой Родине), Наджафгулу Рафиева (на улице его имени мы сейчас находимся, а есть такая улица и в Минске), Аслан Везиров (освобождал Могилев, где ему установлен памятник. Кстати, недавно актеры и руководители Азербайджанского русского драмтеатра им. Самеда Вургуна были на фестивале в Могилеве и возложили цветы).

Мы всегда будем помнить героев-освободителей и прилагать усилия для сохранения мира на планете. И это, конечно, с Вашей помощью, через СМИ, телерепортажи и статьи журналистов.

***ПРИОРИТЕТЫ* белорусского председательства обозначены в Обращении Президента Республики Беларусь А.Г.Лукашенко главам государств-членов ЕАЭС (январь 2025 г.)**

*1. Необходимо сосредоточить совместные усилия на развитии технологического потенциала государств - членов ЕАЭС, формировании общего пространства кооперационного взаимодействия во всех отраслях экономики.*

*2. Для повышения продовольственной безопасности Союза предлагается сконцентрировать усилия на развитии селекции и семеноводства, повышении генетического потенциала племенных сельскохозяйственных животных.*

*3. Следует завершить формирование единого транспортного пространства с принятием равных (недискриминационных) условий и обеспечением справедливой конкуренции, особенно при выполнении воздушных перевозок между нашими странами.*

*4. Необходимо провести целенаправленную работу по выравниванию условий осуществления хозяйственной деятельности, созданию общей и прозрачной конкурентной среды на внутреннем пространстве Союза.*

*5. В текущих условиях следует продолжить работу по защите внутреннего рынка. Такая деятельность должна быть нацелена как на совершенствование таможенно-тарифного регулирования для выравнивания условий хозяйствования в ЕАЭС, так и на полноценную защиту евразийского рынка от небезопасной продукции.*

*6. Также требуется активизация взаимодействия государств - членов ЕАЭС в области цифровой трансформации.*

*7. Новый импульс нужен и для развития международного сотрудничества во всех его форматах, создания дополнительных условий для продвижения товаров Союза на зарубежные рынки.*

*8. Не менее важной является совместная работа, направленная на дополнение экономического трека интеграции проблематикой из социальной и гуманитарной сфер.*

*9. Требуется переход на новый уровень информационного взаимодействия для принятия эффективных мер против различных деструктивных ресурсов, агрессивных выпадов.*

# Ötən il rəqəmsal maliyyə təşəbbüsləri üzrə strategiyanın icra vəziyyəti 88,9% təşkil edib

Trend bu barədə Azərbaycan Mərkəzi Bankının “2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası”nın icra statusuna istinadən xəbər verir.
Xüsusi tənzimləmə rejiminin (XTR) tətbiqi üzrə qaydalar hazırlanması və platforma yaradılması, açıq bankçılıq yanaşmasının tətbiqinə dair portalın istifadəyə verilməsi və normativ metodoloji bazanın təsdiqlənməsi, fintex ekosisteminə dair məlumatların startaplara, investorlara və digər maraqlı tərəflərə təqdim olunması məqsədilə vahid platformanın hazırlanması, maliyyə institutlarından məlumatların toplanılması məqsədilə vahid portala keçidin həyata keçirilməsi, “Maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərdə informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Tələblər”in təsdiq edilməsi uğurla həyata keçirilib.
Həmçinin bildirilib ki, rəqəmsal maliyyə təşəbbüsləri üzrə icra vəziyyəti ilə bağlı gecikən fəaliyyətlər istiqamətinə “Açıq Bankçılıq” xidmətlərindən maliyyə bazarlarında istifadə edilməsi üçün mərkəzləşdirilmiş texniki infrastrukturun yaradılaraq təqdim edilməsi, virtual aktiv və virtual aktiv xidməti təminatçılarına dair qanun layihəsinin hazırlanması, kredit təşkilatlarının borcalanlar haqqında məlumatın Mərkəzləşdirilmiş Kredit Reyestrinə verilməsi Qaydası”na dəyişiklik edilməsi, maliyyə institutları üzrə İT idarəetmə çərçivəsinin formalaşdırılması daxildir.

# “AzerGold” QSC tərəfindən Beynəlxalq Yer Gününə həsr olunmuş tədbirlər keçirilib




“AzerGold” QSC-nin təşəbbüsü ilə 22 Aprel – Beynəlxalq Yer Günü münasibətilə ekoloji və maarifləndirici tədbirlər təşkil edilib.
Beynəlxalq Yer Günü həftəsi çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi və “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə aprelin 21-də Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib.
Aksiyada ekologiya və təbii sərvətlər nazirinin birinci müavini Rəşad İsmayılov, “AzerGold” QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, eləcə də hər iki qurumun rəhbər heyəti, əməkdaşları və könüllülər iştirak edib.
Tədbir zamanı Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib.
Aprelin 22-də isə “AzerGold”un rəhbər heyəti və əməkdaşlarının Abşeron rayonunun Qobustan kəndinin ərazisində yerləşən Palçıq Vulkanları Turizm Kompleksinə ekskursiyası təşkil edilib.
Ekskursiya çərçivəsində ərazidəki palçıq vulkanları barədə məlumat verilib, Səhmdar Cəmiyyətinin heyəti “Qılınc” palçıq vulkanını yaxından izləyiblər.
Kompleksdə planetimizin təkamül prosesini nümayiş etdirən eksponatlarla zəngin olan sərgi zallarında heyvanat aləminin tarixinə dair faydalı məlumatlar təqdim olunub. “Minerallar” sərgisində ölkəmizin fərqli bölgələrinə aid nadir qiymətli daşlar, kristallar və geoloji nümunələri, müxtəlif mineralların qarışıqlarından ibarət süxurlara baxış keçirilib.
Qeyd edək ki, Beynəlxalq Yer Günü ilk dəfə 1970-ci ilin aprelin 22-də ABŞ-də qeyd olunub. Həmin vaxt 20 milyona yaxın insan ətraf mühitin qorunmasına diqqəti artırmaq üçün müxtəlif tədbirlər təşkil edərək, öz mövqelərini ifadə edib. 2009-cu ildə isə BMT-nin Baş Assambleyası tərəfindən qəbul olunmuş qətnaməyə əsasən, “Beynəlxalq Yer Günü” hər il aprelin 22-də beynəlxalq səviyyədə qeyd olunur.

# “Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək” layihəsinin icrasına başlanılıb





***“AzerGold” QSC-nin təşəbbüsü, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin dəstəyi ilə “Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək” layihəsinin icrasına başlanılıb.***
“AzerGold” QSC-nin İdarə Heyətinin üzvü – sədr müavini Xəyyam Fərzəliyev, Aqrar Xidmətlər Agentliyinin sədri Sərdar Hacıyev, Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısının müavini Vüqar Məmmədov, Göygöl Rayon İcra Hakimiyyətinin başçısının müavini Arzu Qocayev, eləcə də yerli icra nümayəndəlikləri, bələdiyyə və digər ictimaiyyət nümayəndələrinin iştirakı ilə layihənin təqdimatı olub.
Bildirilib ki, layihə “AzerGold” QSC-nin fəaliyyət göstərdiyi Daşkəsən və Göygöl rayonlarında heyvandarlıq və bitkiçilik təsərrüfatlarında məhsuldarlığın artırılmasına töhfə vermək, aqrar sahədə fəaliyyətin ətraf mühitin mühafizəsi norma və tələblərinə uyğun şəkildə təşkilinə dəstək göstərmək məqsədilə icra edilir. Bu məqsədlə layihə çərçivəsində kənd təsərrüfatı təyinatlı torpaqlarda il ərzində ümumilikdə 24 dəfə fitosanitar monitorinq, 12 dəfə fumiqasiya tədbiri, 150 məntəqədə bitki mühafizə tədbiri, laborator müayinələr, torpaq və su nümunələrinin ekspertizası, aqrokimyəvi analizlərin aparılması nəzərdə tutulub. Həmçinin heyvandarlıq təsərrüfatlarında 6 dəfə baytarlıq yoxlamalarının aparılması, o cümlədən 280 iribuynuzlu, 285 xırdabuynuzlu, 123 arı ailəsinə ümumi kliniki baxışın keçirilməsi, qan nümunələrinin analizi, ümumi sahəsi 2026 m2 olan heyvandarlıq məntəqələrində 7 dəfə dezinfeksiya işlərinin həyata keçirilməsi nəzərdə tutulub.
Layihə çərçivəsində, həmçinin heyvandarlıq və bitkiçilik sahələrində fəaliyyət göstərən kəndli-fermerlərə ümumilikdə 60-dan çox təlimin keçirilməsi, onların bitkiçilik sahəsində zərərli orqanizmlərlə mübarizə, fitosanitar monitorinq, fumiqasiya tədbirləri, xüsusi təhlükəli yoluxucu xəstəliklərlə mübarizə, eləcə də ətraf mühitin çirklənməsinin qarşısının alınması üçün torpaqların aqrokimyəvi analizlərinin aparılması üsul və qaydaları haqqında məlumatlandırılması, zəruri məsləhətlərin verilməsi planlaşdırılıb.
Bununla “AzerGold” QSC-nin istismar işləri həyata keçirdiyi mədənlərin yaxınlığında yerləşən kənd və qəsəbələrdə kəndli-fermerlərin öz təsərrüfatlarını daha da inkişaf etdirməsinə dəstək göstəriləcək, əhalinin məşğulluğu, sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılmasına əlavə töhfələr veriləcək.

# Qaraciyər nəqli olan qadınlarda reproduktiv funksiyanın öyrənilməsi və idarə olunması vacibdir

Dünyada qaraciyər çatışmazlığına səbəb olan xroniki xəstəliklərin sayı ildən-ilə artmaqdadır. Qaraciyər nəqli hər hansı bir və ya iki üzvün funksiyasının tamamilə pozulması və sıradan çıxması zamanı qəbul olunmuş yeganə müalicə üsuludur. Aparılan tədqiqatlara görə, son 3 ildə Türkiyədə böyrək köçürülmüş qadınların 37%-ni, qaraciyər nəqli olanların 41%-ni, Amerikada isə 60%-ini reproduktiv yaşlı qadınlar təşkil edir.




**Mərkəzi Gömrük Hospitalının Mama-ginekologiya şöbəsinin rəisi, gömrük tibb xidməti polkovnik-leytenantı, t.ü.f.d., mama-ginekoloq Tərənə Bayramova qaraciyər nəqli olan qadınlarda reproduktiv funksiyanın öyrənilməsi və idarə olunması barədə suallarımızı cavablandırıb.**

***- Tərənə həkim, qaraciyər nəqlindən sonra hamiləlik mümkündürmü?***
- Tibb tarixində qaraciyər nəqlindən sonra ilk uğurlu hamiləlik haqqında 1978-ci ildə məlumat verilmişdir. 40 həftə 5 günlük hamiləlik nəticəsində çəkisi 2400 qram olan uşaq doğulmuşdur. Ana və uşaq sağlam olmuş, doğuşsonrası bir illik müşahidə zamanı ağırlaşmalar izlənməmişdir.

***- Qaraciyər köçürülməsindən sonra uyğun hamiləlik vaxtı necə təyin edilir?***
- Qaraciyər transplantasiyasından sonra hamiləlik üçün ən uyğun vaxt qaraciyər funksiyasının normallaşdığı müddət və bu dövr ərzində fəsadlaşma olmaması şərti ilə nizamlı dərman müalicəsindən sonrakı dövr uyğun hesab edilir. Əvvəlki illərdə orqan rəddetməsinin baş verməməsi, nəql olunan orqan hissəsinin funksiyasının sabit və düzgün olması, dölün inkişafına təsir göstərən kəskin infeksiyalaşmanın görülməməsi, immunosupressiv dərman dozasının sabitliyi qorunub saxlanıldığı təqdirdə hamiləliyin baş verməsi mümkündür. Aparılan tədqiqatlardan sonra məlum olmuşdur ki, qaraciyər nəqlindən 2 il sonra hamilə qalmaq uyğundur.

***- Qaraciyər nəqli olmuş hamilələrdə ana və dölə bağlı hansı ağırlaşmalar ola bilər?***
- Anaya bağlı ağırlaşmalara arterial təzyiqin yüksəlməsi, şəkərli diabet, qanda laxtalanmanın pozulması, qanazlığı, infeksiya, nəql olan orqan hissəsinin sıradan çıxması, öd yollarında durğunluq, böyrəklərin iltihabı aid edilir. Dölə bağlı ağırlaşmalara isə hamiləliyin ilkin həftələrində dölün inkişafdan qalması, bətndaxili inkişafın ləngiməsi və hipoksiyası, immun sisteminin çökməsi, anadangəlmə infeksiya (toxoplazmoz, HBV, HCV, CMV) və autoimmun xəstəlik risklərinin yüksək olması aiddir.

***- Hamiləlikdə immunosupressiv dərmanlardan istifadə oluna bilərmi?***
- Hamiləlik planlanarkən transplantasiya komandası ilə immunosupressiv dərman, ana, döl və nəql olunan orqan hissəsi üçün fayda və zərərlər müzakirə edilməli və ən etibarlı müalicə sxemi seçilməli və immunosupressiv müalicə davam etdirilməlidir.

***- Hansı immunosupressivlərin hamiləlik dövründə istifadəsi uyğundur?***
- Kortikosteroid, Basiliximab, Cyclosporine, Tacrolimus, Sirolimus, Everolimus, Micophenolate mofetil, Azathioprine.

***- Orqan transplantasiyası olan qadınlarda zahılıq və südvermə dövrü necə idarə olunmalıdır?***
- Ana və gələcək körpənin sağlamlığı üçün nəql edilən orqan hissəsinin funksiyası təqib edilməli, qanda vaxtaşırı immunosupressiv vasitələrin səviyyəsi təyin olunmadır. Takrolimusun ana südünə çox az keçdiyini nəzərə alaraq, südverən analara təyin edilə bilər. Südvermə dövründə immunosupressiv dərmanların körpələrin mental və fiziki inkişafına təsir etməməsi müəyyən olunmuşdur, lakin bəzi hallarda zahılıq dövründə immunsupressantlar depressiya yarada bilər.

***- Qaraciyər nəqlindən əvvəl və sonra hansı tövsiyələr verilə bilər?***
- Nəqldən əvvəl qadın alıcılar mütləq ginekoloji müayinə olunmalı, pap testi alınmalı və nəticəsi dəyərləndirilməli, problemlər varsa, nəqlə qədər aradan qaldırılmalıdır. Nəqldən 3 ay sonra yenidən ginekoloji baxış olmalı, alıcı qadın hamiləlik, qorunma üsulları, verilməsi mütləq olan təhlillər barədə məlumatlandırılmalıdır. Alıcı qadında baş verə biləcək hər hansı bir xəstəlik transplantasiya briqadası tərəfindən müzakirə olunmalıdır.

***- Tərənə xanım, tibbin yeni və vacib sahəsi olan orqan transplantasiyasına alıcıların hazırlanması sizin hospitalda necə təşkil olunmuşdur?***
- Mərkəzi Gömrük Hospitalında tibb üzrə fəlsəfə doktoru Dr. Mircalal Kazıminin rəhbərliyi ilə Transplantasiya şöbəsi fəaliyyət göstərməkdədir. Xəstələrin nəqldən öncə və sonra müayinə olunması üçün müxtəlif profillərdən olan mütəxəssis həkimlər cəlb olunmuşdur. Transplantasiya mükəmməl komanda işidir. Şöbəyə müraciət edən və orqan köçürülməsi ehtiyacı olan qadın pasiyentlər nəqldən əvvəl və sonra Mama-ginekologiya şöbəsinin həkimləri (tibb üzrə fəlsəfə doktoru, Dr. Tərənə Bayramovanın rəhbərliyi ilə gənc həkimlərdən Leyla Qaçaylı, rezidentlərdən Güllüxanım Rəhimova, Səidə Şindiyeva) tərəfindən müayinə edilərək, ginekoloji patologiyalar konservativ və cərrahi yolla aradan qaldırılmaqdadır. 2018-ci il tarixindən etibarən bu günə qədər xəstələrdən əldə olunan nəticələr toplanaraq, elmi tədqiqat işləri aparılmaqdadır. Laborator-instrumental və klinik xəstə göstəriciləri əsasında 2 metodik vəsait, tezis və elmi-populyar məqalələr hazırlanaraq yerli və xarici jurnallarda çap olunmuşdur.

***- Müsahibəyə görə təşəkkür edirik.***



**Müsahibəni apardı:**
**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Baş nazirin müşaviri Elman Rüstəmova əzizi
**KAMAL RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Ziyad Səmədzadə Baş nazirin köməkçisi Mehman Tağıyevə əzizi
**MÜLAYİM XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Baş nazirin müşaviri Elman Rüstəmova əzizi
**KAMAL RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Baş nazirin köməkçisi Mehman Tağıyevə əzizi
**MÜLAYİM XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**